2024.-27 aprel,№15.-S.18

ƏDƏBİYYAT QƏZETİ

# V "Məmməd Araz Poeziya günü"nə yekun vuruldu








Aprel ayının 22-də V "Məmməd Araz Poeziya günü" çərçivəsində şairin anadan olmasının 90 illiyi münasibətilə ötən il elan olunmuş respublika üzrə şeir müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilib. I Fəxri Xiyabanda şairin məzarı üstündən başlayan və Xəzər Universitetində yekunlaşan V "Məmməd Araz Poeziya günü"nə respublikanın ədəbiyyat, elm adamları, M.Araz şeirinin pərəstişkarları, şairin yaxınları və Xəzər Universitetinin müəllim-tələbə heyəti qatılıb.

Tədbir unudulmaz sənətkarın öz səsində "Ana torpaq, hər daşına üz qoyum" şeiri ilə başlayıb. Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalova, "Məmməd Araz Poeziya günü" layihəsinin rəhbəri, Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, şair Qardaşxan Əzizxanlı, Dillər və ədəbiyyatlar departamentinin dosenti, tənqidçi-esseist Ülvi Babasoy çıxışlarında şairin yaradıcılığının əsas qayəsini yurdun azadlığı, müstəqilliyi və bölünməzliyi ideyasının, bütöv Azərbaycan idealının təşkil etdiyini xüsusi vurğulayıblar.

Xəzər Universitetinin tələbələri Vəlixan Vəlixanlı, Əsiyyət Severxanova, Riad Səfərov, Xədicə Hüseynova şairin "Bir ömrün qonaqları" adlı pərdəsiz dram-zarafatını, Nurgül Umarlı "Palıd", Əsiyyət Severxanova "Məndən ötdü, qardaşıma dəydi", şeir ifası üzrə I və III "Məmməd Araz Poeziya günü"nün qalibi, Məmməd Araz adına "Qartal" mükafatı laureatı, Laçın rayonu 33 saylı orta məktəbin X sinif şagirdi İbrahim Əhmədov "Bu, insan adlanan insan" şeirlərini səsləndiriblər.

Universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsinin filologiya ixtisası üzrə II kurs tələbələri - Elmira Heydərova, Xoşbəxt Quliyeva, Fidan Bağırzadə, Sevinc Abdullayeva, Aydan Mustafayeva, İlkanə Həşimova, Pərvanə Məhərrəmova, Güldənə Əkbərova, Haşimə Əliyeva, Gülər Durmuşzadə, Samirə Xanlarova, Rasimə Mehtiyeva, Ayla Yusifova, Mərcan Əzizli və Xumar Şirvanovanın "Hər tələbə bir misra" layihəsində M.Arazın "Məhəbbət körpümüz" şeirini söyləmələri maraqla qarşılanıb.

Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın pianoda müşayiətilə departamentin müəllimi Məhsəti Cabbarova ("Qızlar bulağı") və Mühəndislik və Təbiət elmləri fakültəsinin tələbəsi Könül İbrahimova ("Bu torpağın, bu diyarın") şairin sözlərinə yazılmış mahnıları ifa ediblər. Departamentin müəllimi Ramin Qarayevin sazda ifa etdiyi şairin "Əlvida, dağlar" şeiri də sürəkli alqışlarla müşayiət olunub.

Sonra şeir üzrə respublika müsabiqəsinin qaliblərinin adları açıqlanıb. Əli Bəbiroğluna (I yer), Sevinc Elsevərə (II yer), Xalid Mahmuda (III yer) qalib diplomları təqdim olunub. Müsabiqədə uğurlu iştirakına görə şairə Mina Rəşid, tələbələrdən Zəhraxanım Məmmədova, Rəşid Nəsirzadə, Amin Səfərov diplomlarla təltif edilib.

Azərbaycan Milli Məclisinin deputatı, yazıçı Aqil Abbas Məmməd Araz yaradıcılığının Azərbaycan ədəbiyyatındakı rolundan danışıb, onun həqiqi milli düşüncəyə və yüksək vətəndaşlıq mövqeyinə malik olduğunu dilə gətirib. O bildirib ki, Məmməd Araz hər zaman həqiqət axtarışında olub, haqq işi uğrunda mübarizə aparıb. Böyük sənətkar Azərbaycan poeziyasının ən qüdrətli nümayəndələrindən biri kimi yaddaşlara köçüb. A.Abbas çıxışının sonunda tədbirin təşkilatçısı kimi Xəzər Universitetinin rəhbərliyinə öz minnətdarlığını bildirib.

Tədbir M.Arazın öz səsində "Salamat qal" şeiri ilə yekunlaşıb.